**UOT 82.0**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA HUMANİTAR ELMLƏRİN AKTUAL PROBLEMLƏRİ

**Orxan USUBALİYEV**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 8 noyabr 2023; çapa qəbul edilmişdir: 27 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 8th of November, 2023; accepted: 27th of November, 2023; published online: 25th, of December 2023.

**Açar sözlər:** *humanitar elmlər, kitab nəşri, humanitar ədəbiyyat, nəşriyyat işi*

## Giriş

Müasir qloballaşma şəraitində Azərbaycanda bütün elm və bilik sahələrinin hərtərəfli şəkildə tədqiq edilib öyrənilməsi və kompleks şəkildə araşdırılması vacib məsələlərdən biridir. Digərlərindən fərqli olaraq mühüm aktuallıq kəsb edən humanitar elmlər sahəsinə daha çox diqqət yetirilir və bu sahənin müxtəlif problemlərini araşdıran elmi-tədqiqatlar aparılır. Hazırda humanitar elmlər sahəsi üzrə dilçilər, ədəbiyyatşünaslar, filoloqlar, tarixçilər və bir sıra elmşünaslar çox ağır, ciddi və məsuliyyətli bir yola çıxmışlar. Şübhəsiz ki, xalqımızın milli irsinin, düşüncə tərzinin, tarixinin, dövlətimizin ideologiyasının dünya miqyasında tanıdılmasında, təbliğində və yaşadılmasında humanitar elmlərin böyük və əhəmiyyətli rolu vardır.

## 1. Problemin kontent analizi

Azərbaycanda kitab və kitabçılıq işinin qədim tarixə malik olmasına baxmayaraq, dünya miqyasında kitabşünaslıq bilikləri və elmi prinsiplər XVII əsrin sonu - XVIII əsrin əvvəllərində formalaşıb. Məhz bu tarixi dövrü əsas götürdükdə, kitabşünaslıq elminin yaranma tarixi 300 illik zaman dilimini aşmaqdadır. Bu tarixi dövr ərzində kitab və kitabçılıq işi forma, məzmun və quruluş baxımından əsaslı şəkildə dəyişərək, cəmiyyətin elmi-istehsalat fəaliyyətində geniş şəkildə mövcudluq göstərməyə başlayıb. Eyni zamanda, dünyanın bir sıra ölkələrində kitab və kitabçılıq işinin kompleks forması olan kitabşünaslıq, ayrıca bir elm sahəsi kimi tədqiqata cəlb edilib. Yəni kitab və kitabçılıq işi, onun elmi mahiyyəti, məzmunu və quruluşu insan fəaliyyətində yeni öyrənilməyə başlanıb. Kitabşünaslıq mühüm bir elm sahəsi kimi həm elmi tədqiqat sahəsinə çevrilib, həm də əlaqədar tədris müəssisələrində tədris olunmağa başlanıb.

Müstəqillik dövründə milli ədəbi dilin formalaşması şəraitində vətəndaşların mədəni, elmi və mənəvi informasiya tələbatını ödəmək məqsədilə müxtəlif elm sahələrinə, eləcə də humanitar elmlərə dair ədəbiyyat nümunələrinin yaradılması və çap olunması vacib məsələ idi. Bu ədəbiyyatlar vasitəsilə Azərbaycan dilinin zənginliyini, tarixini və mədəniyyətini öyrənmək mümkündür. Humanitar elmlər üzrə ədəbiyyatın nəşri milli şüurun inkişafı, millətin, bütünlüklə xalqın təşəkkülü və ədəbi dilin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Suveren dövlətimizin bərpası, müasir dövrün tələbləri nəşriyyat işinin dinamik inkişafına öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyildir ki, milli müstəqillik şəraiti ölkəmizdə müxtəlif elm sahələri, o cümlədən, humanitar elmləri əhatə edən mövzularda müxtəlif çap məhsullarının hazırlanmasına, özəl nəşriyyat sisteminin formalaşması və inkişafına təkan vermişdir. Buna təsir göstərən ən mühüm məqam müasir dövrümüzdə ümummilli lider Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin ölkəmizdə bütün elm sahələrinin, eləcə də humanitar elmlərin inkişafına xüsusi diqqət göstərməsidir. Cənab Prezident İlham Əliyevin Azərbaycanda kitab və

[*] *doktorant, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnsitutu*
*e-mail:* orxan.usubaliyev86@gmail.com

kitabxana mədəniyyətinin inkişafı sahəsində apardığı uğurlu siyasət təqdirəlayiqdir. Məhz bu şəxsiyyətin xüsusi qayğısının nəticəsidir ki, respublikamızda 8 minə yaxın kitabxana, 400-dən çox dövlət, özəl nəşriyyat, 1000-ə qədər qəzet və jurnallar öz fəaliyyətini daha da genişləndirir.

Müxtəlif elm sahələrinin yeni dövrün tələblərinə uyğun müasirləşdirilməsi, qloballaşma dövründə xalqın etnik identikliyini şərtləndirən, milli-irsi, mənəvi-mədəni dəyərlərin qorunub saxlanılmasında humanitar elmlərin rolu danılmazdır. Hazırda da, bu elm sahələri daha aktiv şəkildə özünü büruzə verməlidir [5].

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra humanitar elmlər sahəsində milli düşüncəyə, azərbaycançılıq məfkurəsinə və dövlətçilik maraqlarına cavab verən yeni tədqiqatların təşkili mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, son 30 ili əhatə edən dövrdə Azərbaycanda humanitar elmlər sahəsində aparılmış çox saylı elmi araşdırmaların əksəriyyəti nəzəri və fəlsəfi məzmun baxımından bir o qədər də tələb olunan səviyyəyə cavab vermir. Təəssüf ki, tarix, fəlsəfə, dilçilik, ədəbiyyat və digər humanitar sahələrdə müxtəlif alim və tədqiqatçılar tərəfindən yazılmış kitablar heç də mükəmməl deyildir. Bu səbəbdən, Azərbaycanda humanitar elmlər üzrə tədqiqatların yeni elmi metodologiyaya əsasən aparılması mühüm məsələ kimi diqqəti cəlb etməyə bilməz. O da aydındır ki, müasir dövrdə ölkəmizdə humanitar elmlərlə məşğul olan alim və mütəxəssislərin qarşısında mühümvə ciddi vəzifələr dayanır [1]. Ancaq unutmamalıyıq ki, bu hədəflərə çatmaq və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün humanitar elmlərdə mövcud olan müxtəlif ziddiyyətləri aradan qaldırmaq zəruridir.

Mütəxəssislər tərəfindən aparılmış kütləvi sorğuların nəticələri deməyə əsas verir ki, Azərbaycan cəmiyyətində insanların elmi fəaliyyətlə məşğul olmasında müəyyən qədər laqeydlik hökm sürür. Sözsüz ki, bu fakt ölkə ziyalıları arasında kifayət qədər narahatçılıq doğuran məqamlardan biridir. Bunun müxtəlif səbəbləri vardır və onların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi lazımdır. Təəssüf ki, müdafiə olunan bəzi dissertasiyaların elmi sanballılığı və yenilik dərəcəsi xeyli aşağıdır.

Humanitar elmlər sahəsində müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmış dissertasiya işləri və nəşr olunmuş kitablar elmi ictimaiyyət tərəfindən ciddi müzakirələrə səbəb olur. Belə ki, bəzən hər hansı bir ədibin və ya orta əsrlərdə yaşamış filosofun həyat və yaradıcılığına həsr olunmuş bir-iki yox, 10-larla ayrıca tədqiqat işi aparılır. Ekspertlər qeyd edirlər ki, dissertasiya mövzularının seçilməsi zamanı məhdudiyyətin tətbiq olunmaması, əksər tədqiqatçının eyni mövzulara müraciət etməsi ilə nəticələnir. Ona görə də, humanitar elm sahələrində müdafiə olunmuş elmi işlərin və dissertasiyaların attestasiyasının keçirilməsi vacib məsələdir.

## 2. Kitab yayımı və mütaliə problemi

Hazırda humanitar elmlərlə bağlı nəşr olunmuş kitabların yayımının genişləndirilməsi probleminin əsas səbəblərindən biri "KİV"lərlə bağlıdır. Belə ki, müasir dövrdə mütaliəyə marağı artırmaq vacib məsələdir. Bu gün demək olar ki, kitab yayımı çox aşağı səviyyədədir və kitabın təbliği ilə reklamı istənilən səviyyədə təşkil edilmir. Əgər çapdan buraxılan kitablar haqqında mütəmadi elanlar getsə, məlumatlar verilsə, telekanallarda müxtəlif mövzulu kitablarla bağlı verilişlər təqdim olunsa, oxucu marağı və mütaliə məsələləri geniş şəkildə ictimaiyyətə çatdırılsa, kitab yayımı sahəsində bir çox məsələlər həllini tapmış olar. Müasir dövrdə kitab yayımçılığı sahəsində çox böyük vəzifələr dayanır ki, bunu səmərəli həyata keçirməkdə sahə mütəxəssislərindən çox şey asılıdır [3, s. 53-55].

## 3. Nəşriyyatların fəaliyyəti

Xüsusi vurğulamaq yerinə düşər ki, müstəqillik şəraitində Azərbaycanda humanitar elmlərin problemləri ilə bağlı əsərlərin meydana gəlməsi və ümumilikdə, bu istiqamətdə sanballı elmi əsərlərin çapında nəşriyyat müəssisələrinin əhəmiyyətli xidmətləri olmuşdur. Bu məqsədlə, ölkəmizdə fəaliyyət göstərən bir sıra mühüm nəşriyyatın fəaliyyətinə qısaca nəzər salaq.

Azərbaycanda fəaliyyət göstərən qabaqcıl nəşriyyat müəssisələrindən biri "Bakı Universiteti"

nəşriyyatıdır. Tarixi Bakı Dövlət Universitetinin yaranması ilə sıx bağlı olan "Bakı Universiteti" nəşriyyatı ilk vaxtlarda redaksiya-nəşriyyat şöbəsi kimi fəaliyyətə başlamışdır [4]. Müstəqillik dövründə "Bakı Universiteti" nəşriyyatında dəyərli alimlərin sanballı elmi araşdırmalarının nəticəsi olaraq, çap olunmuş humanitar elmlər üzrə nəşrlərdən "Türk ədəbiyyatı tarixi", "Azərbaycanda kitabxana işinin tarixi", "Azərbaycan uşaq ədəbiyyatı", "Müasir Azərbaycan ədəbiyyatı" və s. tədris ədəbiyyatı yüksək keyfiyyəti ilə Azərbaycan kitab mədəniyyətində xüsusi əhəmiyyət kəsb edir.

Araşdırmalar deməyə əsas verir ki, Azərbaycanda universal xarakterli ilk dövlət nəşriyyatı hesab olunan "Azərnəşr", 1923-cü ildən etibarən işə başlamış və bugünədək Azərbaycan kitab mədəniyyətinin inkişafı sahəsində uğurla fəaliyyətini davam etdirmişdir. Bu illər ərzində dövrün tələbinə uyğun olaraq, on minlərlə müxtəlif elmi profilli kitablar nəşr etmişdir. Fəxarətlə qeyd etmək olar ki, ümummilli liderimiz Heydər Əliyevin əsərlərindən ibarət "Müstəqilliyimiz əbədidir" çoxcildliyi, ulu öndərin öz xeyir-duası ilə məhz "Azərnəşr"ə həvalə edilmişdir. Həmçinin, hörmətli Prezidentimiz cənab İlham Əliyevin "İnkişaf məqsədimizdir" çoxcildliyi də yüksək poliqrafik şəkildə nəşr olunur [2]. Təqdirəlayiq haldır ki, "Azərnəşr" kimi böyük bir poliqrafiya müəssisəsi tərəfindən Azərbaycan dili ilə yanaşı, rus, ingilis, fransız və s. əcnəbi dillərdə humanitar elm sahələrinin müxtəlif problemlərinə həsr olunmuş yüzlərlə kitabı çap edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatı 1945-ci ildə yaradılmış və həmin ildən AMEA-nın "Məruzələr"i çap olunmağa başlamışdır. Jurnalların çap tarixlərini aşağıdakı ardıcıllıqla qeyd edə bilərik:

AMEA-nın "Türkologiya" jurnalı 1970-ci ildən nəşr olunur. "Sovetskaya türkologiya" jurnalı 1993-cü ildə "Türkologiya" adı ilə nəşr olunur.AMEA-nın "Xəbərlər"i 1997-ci ildən nəşr olunur.

FTR seriyası (İnformatika və idarəetmə problemləri buraxılışı), AME-nın "Xəbərlər"i FTR seriyası (Fizika və Astronomiya buraxılışı) 1934-cü ildən nəşr olunur.

AMEA-nın "Xəbərlər"i İctimai elmlər seriyası 1958-ci ildən nəşr olunur. AMEA-nın "Xəbərlər"i humanitar elmlər seriyası isə 1966-cı ildən nəşr olunur.

Terminologiya məsələləri 2000-ci ildən nəşr olunur. AMEA-nın "Elm və həyat" jurnalı 1961-ci ildən nəşr olunur.

Bu jurnallarda AMEA-nın akademik-həqiqi üzvlərinin, müxbir və xarici üzvlərinin əvvəllər heç yerdə çap olunmayan orijinal elmi tədqiqatlarının nəticələri çap edilir. Qeyd edilən jurnallarda, digər müəlliflərin də məqalələri nəşr olunur.

"Çaşıoğlu" Elm İstehsalat Firması Azərbaycanda fəaliyyət göstərən qabaqcıl və geniş sferalı nəşriyyat müəssisələrindən biridir. "Çaşıoğlu" nəşriyyatı 1995-ci il tarixindən indiyədək uğurla fəaliyyət göstərir. Bu özəl poliqrafiya şirkəti müasir çap avadanlıqlarına malik olduğundan istənilən nəşriyyat məhsulunu yüksək keyfiyyətlə istehsal etmək imkanına malikdir. Nəşriyyatın fəaliyyəti dövründə yüzlərlə müxtəlif sahələrdə, eləcə də humanitar elmlər üzrə nəfis bədii tərtibatda kitablar çapdan buraxmışdır.

"Təhsil Nəşriyyat-Poliqrafiya MMC" Azərbaycanda fəaliyyət göstərən ən profesional nəşriyyat-poliqrafiya birliyi kimi xüsusi əhəmiyyət kəsb edir. Nəşriyyat 1993-cü ildə yaranmış və indiyədək uğurla fəaliyyət göstərməkdədir. Müstəqillik illərində ölkəmizdə humanitar elmlər üzrə kitab nəşrinin inkişafında, xüsusilə təhsil quruculuğu konsepsiyasının əsasını təşkil edən dərsliklərin və digər elmi-metodik ədəbiyyatın hazırlanmasında "Təhsil" nəşriyyatının xüsusi əməyi vardır. Nəşriyyat fəaliyyət göstərdiyi müddətdə 6500-dən çox adda və 33 milyon nüsxədən çox müxtəlif elm sahələrinə dair kitab, o cümlədən, humanitar elmlər üzrə milli ədəbiyyat nümunələri, dərslik, dərs vəsaiti və elmi-metodik ədəbiyyat nəşr etmişdir [6]. Xüsusi qeyd etmək yerinə düşər ki, son dövrdə nəşriyyat özünün yaradıcılıq imkanlarını genişləndirməklə yanaşı, istehsal prosesində istifadə olunan texniki imkanlarını da xeyli artıraraq müasir tələblər səviyyəsinə çatdırmışdır. Təsadüfi deyildir ki, həyata keçirilən müvafiq tədbirlər sayəsində "Təhsil" nəşriyyatı hazırda ölkəmizdə fəaliyyət göstərən ən müasir çap avadanlıqlarına malik poliqrafiya müəssisəsidir. "Qanun" nəşriyyatı Azərbaycanda kitab nəşri sahəsində fəaliyyət göstərən qabaqcıl nəşriyyat

müəssisələrindən biridir. Bu poliqrafiya müəssisəsinin əsas fəaliyyət istiqaməti Azərbaycanın qanunvericilik sistemi ilə əlaqədar olaraq kitab, jurnal və ensiklopedik nəşrlərin istehsalı ilə bağlıdır. Eyni zamanda, burada humanitar elmi və bədii ədəbiyyat nümunələrinin çapı da yüksək səviyyədə həyata keçirilir.

1992-ci ildə görkəmli dilçi alim, filologiya üzrə elmlər doktoru, professor Nadir Məmmədli tərəfindən təsis olunmuş "Nurlan" nəşriyyatı, Azərbaycanda müstəqillik dövründə fəaliyyətə başlamış ilk poliqrafiya müəssisələrindən biridir. "Nurlan" nəşriyyatının əsas fəaliyyət istiqaməti müxtəlif elm sahələri, o cümlədən, humanitar elmlər üzrə kitab, ardı davam edən məcmuə və ensiklopedik nəşrlərin çapı ilə bağlıdır.

1993-cü ildə yaradılmış "Mütərcim" Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzi də Azərbaycanda fəaliyyətə başlayan ilk özəl nəşriyyat müəssisələrindən biridir. Təhlillərə görə, bu özəl nəşriyyatın istehsal gücü ildə 100-120 adda kitab çapından ibarətdir. Nəşriyyat əsasən humanitar elmlər üzrə tərcümə ədəbiyyatı, lüğət, ali və orta ixtisas müəssisələrinin tələbələri üçün tədris nəşrlərinin tərtibi və çapı sahəsində ixtisaslaşmışdır. Nəşriyyatın yüksək ixtisaslı kadr potensialı və müasir tələblərə cavab verən maddi-texniki bazası mövcuddur. "Mütərcim" nəşriyyatının nəşr etdiyi kitablar öz məzmunu, oxucu auditoriyasını dəyərləndirmək, bədii tərtibat və nəfis çap baxımından həmişə yüksək qiymətləndirilmişdir.

Azərbaycanda uzun müddətdir ki, fəaliyyət göstərən "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzinin elektron resurslarından ibarət olan böyük rəqəmsal bazası mövcuddur. Biz buradan "Mütərcim" dərgisinin istənilən sayını, "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" jurnalının bütün nömrələrini və digər çap məhsullarının elektron formada nüsxələrini onlayn formada oxumaqla yanaşı, yükləmək imkanına da sahibik.

"Pedaqogika" nəşriyyatı 3 yanvar 2000-ci ildə yaradılmış və onun çoxillik iş təcrübəsi Azərbaycanda fəaliyyət göstərən ixtisaslaşmış nəşriyyatlardan biri kimi xeyli maraq doğurur. Nəşriyyatın əsas fəaliyyət istiqamətinə humanitar elmlər üzrə tədris nəşrlərinin hazırlanması və çapı daxildir. Eyni zamanda, nəşriyyat tərəfindən elmi, bədii və soraq nəşrlərinin çapı da reallaşdırılır.

"Təbib" nəşriyyatı Azərbaycanda uğurla fəaliyyət göstərən nəşriyyatlardan biridir. Nəşriyyat 1991-ci ildə yaradılmışdır. Nəşriyyatın əsas məqsədi respublikada tibb ədəbiyyatı nəşrinin təkmilləşdirilməsidir. Nəşriyyat 1992-ci ildən etibarən tam təsərrüfat hesabı ilə fəaliyyət göstərir. Burada əsasən tibb universiteti tələbələri üçün dərsliklər, dərs vəsaitləri, metodik ədəbiyyat və tibbə dair monoqrafiyalar, elmi-praktik məcmuələr və elmi-kütləvi əsərlər çap edilir [7]. "Təbib" nəşriyyatında yüksək ixtisaslı kadrlar tərəfindən müxtəlif əlyazma mətnlərin elektronlaşdırılması prosesi də uğurla icra olunur.

"Min Bir Mahnı" nəşriyyatı 20 ildən çoxdur ki, öz fəaliyyəti ilə Azərbaycanda kitab mədəniyyətinin inkişafında mühüm rol oynayır. Bu poliqrafiya müəssisəsinin əsas fəaliyyət istiqaməti kitab, jurnal və ensiklopediya nəşri ilə bağlıdır. Bununla yanaşı, nəşriyyatda humanitar elmi və bədii ədəbiyyat nümunələrinin çapı da həyata keçirilir.

Azərbaycanda fəaliyyət göstərən özəl nəşriyyatlardan biri kimi, 1996-cı ildə təsis olunmuş "Şirvan nəşr" kitab nəşriyyatının iş təcrübəsi diqqəti cəlb edir. Belə ki, humanitar elmlərə dair bədii, ictimai-tarixi və uşaq ədəbiyyatı üzrə ixtisaslaşmış bu nəşriyyatın kitab çapı sahəsində xeyli nailiyyətləri vardır.

"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi ölkəmizdə uğurla fəaliyyət göstərən dövlət nəşriyyatlarından biridir. 30 dekabr 1965-ci il Azərbaycan Sovet Ensiklopediyası Baş Redaksiyası, 1989-2004 illərdə "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-poliqrafiya birliyi, 5 may 2004-cü ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəz kimi ölkə Prezidentinin sərəncamına əsasən yaradılmışdır. Nəşriyyatın əsas fəaliyyət istiqaməti çoxcildli universal xarakterli müstəqil Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşridir.

1986-cı ildən dövlət nəşriyyatı kimi fəaliyyətə başlayan "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti hazırda ölkəmizdə ən iri özəl poliqrafiya müəssisəsi kimi fəaliyyətini uğurla davam etdirir. O, müxtəlif dillərdə irimiqyaslı nəşriyyat layihələri çərçivəsində böyük tirajlarla kitab çapı

ilə məşğuldur. Burada müvafiq ixtisas üzrə ölkədə və xaricdə təhsil almış yüksək peşəkarlar, böyük iş təcrübəsinə malik olan əcnəbi mütəxəssislər də fəaliyyət göstərir.

Azərbaycan Dövlət İqtisad Universitetinin nəşriyyatı 1972-ci ildən fəaliyyətə başlamışdır. Nəşriyyat fəaliyyət göstərdiyi müddətdə minlərlə dərslik, dərs vəsaiti, metodik vəsait və metodik göstəriş, tədris proqramları, monoqrafiya və külliyyatlar nəşr edərək müəllim və tələbə heyətinin ixtiyarına vermişdir. Azərbaycan Dövlət İqtisad Universitetinin nəşriyyatında son illər ərzində 2400 adda müxtəlif təyinatlı çap məhsulları: dərsliklər, dərs vəsaitləri, metodik göstərişlər, fənn proqramları, monoqrafiyalar, müxtəlif formatlı elmi-praktiki konfransların materialları, tədris işində istifadə edilən çoxsaylı blanklar yüksək keyfiyyətli poliqrafik tərtibatda və yüz minlərlə tirajla çapdan buraxılmışdır. Habelə, nəşriyyatda "İqtisad Universitetində tərcümə edilmiş dərsliklər" seriyası ilə iqtisad elmləri üzrə dünya çapında mövqe tutan fundamental əsərlər kafedralarında ingilis, rus və digər dillərdən tərcümə olunaraq nəşrə hazırlanır və yüksək poliqrafik keyfiyyətdə çap olunur. Belə ki, bu vaxtadək nəşriyyatda 50-yə yaxın tərcümə kitabı on minlərlə tirajla çapdan buraxılmışdır.

Bütün bunlar bir daha təsdiq edir ki, müstəqillik şəraitində ölkəmizdə mövcud olan dövlət, özəl, idarə və müəssisə nəşriyyatlarının fəaliyyətləri üçün hər cür şərait yaranmışdır. İndi müstəqil ölkəmizdə fəaliyyət göstərən nəşriyyat sistemi kitabın istehsalı, nəşri, tərtibatında, məzmun və elmi səviyyəsində, həmçinin, miqdarında və s. nailiyyətləri ilə özünü büruzə verir. Yalnız belə bir faktı qeyd etmək kifayət edər ki, müasir dövrdə Azərbaycanda istər təbiətşünaslıq, istər dəqiq, istərsə də ictimai elm sahələri üzrə, eləcə də humanitar elmlərə dair ümumilikdə, müxtəlif növdə 4 mindən çox fərqli adda kitabın nəşri həyata keçirilmişdir. Təqdirəlayiqdir ki, bütün bu tədbirlər xalqımızın qədim ənənələrə malik kitab mədəniyyətinin daha da zənginləşdiyini göstərməklə bərabər, informasiya cəmiyyəti şəraitində vətəndaşların mütaliəsinin keyfiyyəti və səmərəliliyinin yüksəldilməsində vacib rol oynamışdır.

**Nəticə**

Beləliklə, Respublikamızda gedən proseslərdən, qazanılan nailiyyətlərdən bəhrələnən Azərbaycan kitabının daim inkişaf edib yenilənməsi, öz tarixi boyu işğal altında olsa da, indi azadlıq yoluna çıxıb milli istiqlaliyyətini bərpa edən xalqın mənəvi imkanlarının bitib-tükənmədiyini, əksinə, daha yüksək zirvələr fəth etməyə istiqamətlənə biləcəyini göstərir. Parlaq istedadı ilə seçilən kitab ustalarımızın çoxəsrlik bədii və texniki tərtibatı tarix boyu qazandıqları nailiyyətlər, onların sələfləri üçün gözəl başlanğıcdır. İndiki zamanda zəngin milli ənənələrə söykənən bədii yaradıcılığın daha da inkişaf etdirilib dünya səviyyəsində tanıtdırılması üçün ölkəmizdə hər cür şərait vardır. Realist sənətin imkanlarından yararlanıb yeni-yeni zirvələr fəth edən kitab tərtibçilərimizi, irəlidə klassik ənənələrimizlə səsləşən yeni, daha gözəl yaradıcılıq uğurları gözləyir.

## ƏDƏBİYYAT


1. Ağasəf İ. Menecment. Dərslik. Bakı: Nurlan, 2007, 268 s.
2. Allahverdiyev B. Kitabşünaslığın əsasları. Bakı: Uni Print, 2011, 446 s.
3. Həmidov R. Menecmentin nəşriyyata tətbiqi məsələləri // Kitabşünaslıq və nəşriyyatişi: elmi-nəzəri və təcrübi jurnal, 2008, №4, s. 53-55
4. Qarayeva S. "Bakı Universiteti" nəşriyyatı: dünəninə və bu gününə baxış //525-ci qəzet, 2011, 4 iyun, s. 15.
5. Məhərrəmov A. Humanitar elmlərin inkişaf strategiyası milli ideologiyaya cavab verməlidir // Azərbaycan, 2010, 5 mart, s. 4
6. Umudlu İ. Kitab nəşri bu gün. Bakı, 2004, 321 s.
7. Zəkiyev İ. Azərbaycanda nəşriyyat işi. Bakı: Yeni Nəsil, 2000, 286 s.

***Резюме***

***Орхан Усубалиев***

***Актуальные проблемы гуманитарных наук в Азербайджане в наше время***

В данной статье ведется широкое обсуждение актуальных проблем гуманитарных наук в Азербайджане в современную эпоху. В статье отдельно анализируются актуальные проблемы гуманитарных наук. В статье отмечается, что восстановление нашей национальной независимости и требования современной эпохи положительно повлияли на развитие книги и бухгалтерского учета. Таким образом, условия независимости коренным образом повлияли на расширение книгоиздания (литературы) как в гуманитарных, так и в различных областях науки, на создание и реконструкцию издательской системы, ее развитие. Восстановление нашей национальной государственности и суверенных прав, требования современной эпохи положительно сказались на становлении и динамичном развитии издательского дела и полиграфии, а также книгоиздания. Оно оказало значительное влияние на развитие разнообразной печатной продукции и формирование частной издательской системы в области гуманитарных, а также различных областей науки. В статье также выделяется распространение книг как серьезная проблема. Также в статье рассматривается проблема чтения книг. В годы независимости особо отмечается деятельность и значение издательств в печати научных трудов и национальной литературы, связанных с актуальными проблемами гуманитарных наук в Азербайджане. Также в данной статье отражена деятельность многих издательств. В статье подчеркивается важность развития национального самосознания, формирования народа и изучения литературного языка при издании национальной гуманитарной литературы.

**Ключевые слова:** *гуманитарные науки, книгоиздание, гуманитарная литература, изда- тельская деятельность*

**Summary**

***Orkhan Usubaliyev***

***Actual problems of humanitarian sciences in Azerbaijan in modern times***

In this article, there is abroad discussion of the current problems of humanitarian sciences in Azerbaijan in the modern era. In the article, the actual problems of humanitarian sciences are analyzed separately. It is mentioned in the article that the restoration of our national independence and the requirements of the modern era had a positive effect on the development of books and bookkeeping. Thus, the conditions of independence fundamentally influenced the expansion of book publishing (literature) in humanities as well as various fields of science, the creation and reconstruction of the publishing system, and its development. The restoration of our national statehood and sovereign rights, the demands ofthe modern era had a positive effect on the formation and dynamic development of publishing and polygraphy, as well as book publishing. It has had a significant impact on the development of various printed products and the formation of the private publishing system in the fields of humanities as well as various fields of science. The article also highlights book distribution as a major problem. The article also discusses the problem of book reading. During the years of independence, the activity and importance of publishing houses in the printing of scientific works and national literature related to the actual problems of humanitarian sciences in Azerbaijan is specially noted. Also, the activities of many publishing houses are reflected in this article. The article emphasizes the importance of the development of national consciousness, the formation of the people and the study of the literary language in the publication of national literature on humanities.

**Key words:** *humanitarian sciences, book publishing, humanitarian literature, publishing work*

Redaksiya heyətinin üzvü fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.